AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# KƏLBƏCƏR TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN MATERİALLARI AZƏRBAYCAN TARİXİNİ ÖYRƏNMƏK ÜÇÜN MƏNBƏ KİMİ

**İxtisas: 5509.01 –** Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları

**Elm sahəsi:** Tarix

**İddiaçı: Ramiz Hüseyn oğlu Nəcəfli**

fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasında yerinə yetirilib

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**Anar Camal oğlu İsgəndərov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, dosent
**Tofiq Hümbət oğlu Nəcəfli**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Boran Orduxan oğlu Əziz**

tarix üzrə fəlsəfə doktoru
**Akif Əlavəddin oğlu Məmmədli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**
____________________

Dissertasiya şurasının
Elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**
____________________

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent
**Vaqif Şirin oğlu Abışov**
____________________

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan müstəqillik qazandıqdan sonra tarix elminin, xüsusilə də vətən tarixinin öyrənilməsi və qədim dövlətçilik tariximizin obyektiv yazılması üçün əlverişli şərait yarandı. Zəngin tariximizin araşdırılmasında tarix elminin mənbəşünaslıq sahəsinin böyük rolu olmuşdur. Qarabağ və onun ətrafında baş verən hadisələr, tariximizi daha da dərindən araşdırmağa bizi sövq edir. Qədim tarixi köklərə malik olan Azərbaycanın keçdiyi şərəfli yolun öyrənilməsi və təbliği işində tarix-diyarşünaslıq muzeyləri müstəsna əhəmiyyət kəsb edir. Tarixi abidələrimizin erməni "tarixçiləri" tərəfindən saxtalaşdırılmasının üzə çıxarılmasında əyani mənbə kimi muzey materialları önəmlidir. Odur ki, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi eksponatlarının zənginliyi və materiallarının əhatəliliyi ilə bir sıra muzeylərdən seçilir. Bu baxımdan öyrənilən mövzu aktualdır.

Azərbaycanda muzey işinin inkişafı hələ XX əsrin 70-80-ci illərində ümummilli lider Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Məhz həmin dövrdə yeni-yeni muzeylər açılmış, köhnə muzeylərin ekspozisiyası yeniləşdirilmiş, muzeylərin maddi təminatı yaxşılaşdırılmışdır. Bu dövrdə yaradılmış muzeylərdən biri də 1980-ci ildə kəlbəcərli alim Şamil Əsgərov tərəfindən əsası qoyulmuş Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyidir. Ş.Əsgərovun hələ XX əsrin 50-60-cı illərindən muzeylə bağlı qurduğu xəyallar, Heydər Əliyevin səyi nəticəsində 1980-ci ildə reallığa çevrildi. Muzeyin ərsəyə gəlməsində həm təşəbbüskarlıq baxımından, həm də reallığa çevrilməsində akademik Həsən Əliyevin böyük xidməti olmuşdur. Belə ki, 1975-ci ildə AMEA-da geoloqların qurultayı keçirilərkən, həmin vaxtda bu elm ocağının foyesində Kəlbəcər məktəblərinin müəllim və şagird kollektivinin diyarşünaslıq materiallarından və hazırladıqları təhsil vasitələrindən ibarət sərgi keçirilirdi. Elə o zaman akademik Həsən Əliyev qurultayda çıxış edərək Kəlbəcərdə tarix-diyarşünaslıq muzeyinin yaradılması ilə bağlı yeni təklif vermişdir. Təklif, qurultay nümayəndələri tərəfindən yüksək qiymətləndirilmiş və o gündən Həsən Əliyev fəaliyyətə başlayaraq bu işin dövlət səviyyəsində həllini tapması üçün o zaman Azərbaycan SSR MK-nın birinci katibi vəzifəsində çalışmış Heydər Əliyevə müraciət etmişdir. Bu müraciətdən sonra Kəl-

bəcər Tarix-Diyarşünaslıq Muzeyinin yaranması üçün müsbət qərar verilmişdir. Muzeyin əsası 1979-cu ildən qoyulmuş, 1979-1980-ci illərdə məhdud vəziyyətdə fəaliyyətdə olmuşdur. 1982-ci ildə yeni muzeyin bünövrəsi qoyuldu və 1984-cü ildə təntənəli açılışı oldu. Muzeydə 3 kabinet, 9 ekspozisiya salonu və 36 mindək bir eksponat fondu yerləşmişdi.

Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin materialları Azərbaycanın ən böyük rayonu olan Kəlbəcərdə insanın təşəkkül tapmasından çağdaş günümüzədək bütöv bir tarixini özündə əks etdirməklə, vətən tariximizin öyrənilməsində dəyərli mənbə rolu oynayır. 1993-cü ilin aprelində Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə 36 minə qədər eksponatı özündə qoruyub saxlayan bu muzey də qənimət kimi düşmənin əlinə keçdi. Bununla belə muzeyin direktoru Ş.Əsgərov Bakı şəhərində əvvəlki muzeyin əsasında Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyini yenidən qurdu. Kəlbəcər sakinlərinin əllərində qalan qədim əşyalar muzeyə toplanıldı. Muzeyin eksponat fondunun formalaşmasında Kəlbəcərin işğalından bir il əvvəl Bakı şəhərində sərgiyə gətirilmiş eksponatların da payı olmuşdur. Hazırda Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində 6330 eksponat vardır.

"Böyük Ermənistan" iddiaçıları qənimət kimi ələ keçirdikləri Kəlbəcər muzeyinin eksponatlarını erməni mədəniyyəti adı ilə beynəlxalq səviyyədə təbliğ etmiş, Azərbaycanın maddi-mədəniyyət abidələrini özününküləşdirməyə çalışaraq hər vəchlə bu bölgəni əlində saxlamağa çalışmışlar. Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyi uğurlu siyasət nəticəsində torpaqlarımızın azad edilməsi ilə başa çatan 44 günlük vətən savaşında digər torpaqlarımız kimi Kəlbəcər də düşməndən geri alındı. Kəlbəcərin azad olunması bu bölgədəki tarixi abidələr üzərində erməni vandalizminin izlərini dərindən araşdırmağa imkan yaratdı. Bu mənada Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi materialları əsasında ərsəyə gələn dissertasiya işi aktuallığı ilə seçilir. Bütün dünyanın diqqətini cəlb edən Qarabağ məsələsində Azərbaycanın haqq davasında olduğunu təsdiq edən dəlillər, muzey materiallarında önəmli yer tutur. Belə ki, Qarabağ və onun ətrafındakı tarixi abidələrin müəyyən hissəsinin ermənilər tərəfindən məhv edilməsi, müəyyən hissəsinin isə saxtalaşdırılması konkret faktlarla sübut olunaraq erməni millətçilərinin qurduqları planlar alt-üst edilir.

Dünya mədəniyyətinin inkişafı, təbliği və mədəni irsin öyrənilməsində, keçmişin qaranlıq səhifələrinin işıqlandırılmasında, incəsənət nümunələrinin və vətənpərvərliyin təbliği işində tarix-diyarşünaslıq muzeylərinin rolu olduqca əhəmiyyətlidir. A.Məmmədovun təbirincə desək: *"Muzeylər sanki, müxtəlif dövrlərin maddi-mənəvi dəyərlərini sadəcə, yaxud təkcə virtual deyil, real surətdə də əks etdirə bilən "zaman maşınları" funksiyalarını daşıyırlar"*[1].

Kəlbəcər muzeyi materiallarına tarixi mənbə kimi ilk dəfədir ki, müraciət olunur. Bu mənbələr qədim insan məskənlərindən biri olan Kəlbəcərdə ibtidai insanın təşəkkül tapması və formalaşmasından xəbər verir. Muzey materialları minillərdən bəri ulularımızın keçdiyi həyat yoluna işıq saçaraq qədim insan düşərgələrinin, qayaüstü təsvirlərin, şəhər xarabalıqlarının öyrənilməsində əhəmiyyətli mənbədir. Muzeyin həyətində və ekspozisiya salonlarında beş min ildən çox tarixi olan qədim yaşayış məskənləri haqqında məlumatlar, altı min il yaşı olan qayaüstü təsvirlər, çöp şəkilli qədim türk əlifbası nümunələri yer almışdır.

Bundan başqa, dissertasiya işində Kəlbəcərin təbii sərvətləri, xalqımızın sosial-iqtisadi, siyasi, etnik tarixi və mədəniyyəti sahəsində çoxsaylı materiallar təhlil edilir. Mütəxəssislər bu muzeyi nəinki tarix-diyarşünaslıq muzeyi, həm də arxeologiya, incəsənət və səs muzeyi də adlandırırdılar. Onlar doğrudan da haqlıdırlar. Belə ki, muzeyin çöl divarlarını 2 mindən artıq rəng çaları olan daşlar bəzəyirdi. Kəlbəcərin daş xəzinələrinin 10 min rəng çalarlı nümunələri də muzeyin salonlarında nümayiş etdirilirdi. Yəni muzeyin binası özü Azərbaycanın çox qiymətli tarixi abidələrindən biri idi. Bu mədəniyyət ocağının eksponatları 3 kabinetdə, 9 nümayiş salonunda və içərisində 36 minə qədər bir fondda yerləşmişdi. Muzeyin həyətində qayaüstü təsvirlər, daşdan qoç və at fiqurları, nəhəng bəzir daşları, qazıntı nəticəsində tapılmış çoxlu əşyalar olduqca dəyərli artefaktlardandır.

---

[1] Məmmədov, A. Əyləncə ilə təlim: mif, ya reallıq: muzeydə xalqımızın nəsil artımı ilə bağlı qədim adət, mərasim və inanclarını əks etdirən eksponatlar əsasında tarixi-demoqrafik bilgilərin öyrədilməsi // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi elmi toplusu, – 2022, – s.353-360.

Aktuallığı və elmi əhəmiyyətinə baxmayaraq Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin materialları indiyədək mənbə kimi tədqiqat obyekti olmamışdır. Problem Azərbaycan tarixinin bütün dövrlərini-qədim, orta əsrlər, yeni və ən yeni dövrlərini əhatə edir. Muzey materiallarında arxeoloji, etnoqrafik və yazılı mənbələr əks olunmuşdur.

Kəlbəcərin qədim dövr abidələri sırasında qayaüstü rəsmlərin tədqiqində arxeoloq Qüdrət İsmayılovun böyük əməyi olmuşdur. O, 1976-cı ildən tədqiqata başlamış və Kəlbəcər rayonunun təkcə Qaragöl ətrafında 800-ə qədər qayaüstü təsvir aşkarlamışdır. Kəlbəcərdə qayaüstü rəsmlərin çoxu dəniz səviyyəsindən iki-üç min metr yüksəklikdə yerləşən Zalxagöl və Qaragölün sahillərində aşkarlanmışdır. Gəlin Qayası, Zalxa Gölü, Sərçəli dağ, Soltan Heydər, Qonaqgörməz, Yüzbulaq, Pəriçınqılı, Ayıçınqılı, Qurbağalı Çay, Qızıltəpə, Qaragöl ərazilərində müxtəlif növlü təsvirlər aşkar edilmişdir. Arxeoloq bu abidələrin yaxınlığında qədim yaşayış məskəni aşkarlamışdır. O, buradakı qədim tikintinin ətrafında apardığı kəşfiyyat qazıntısı zamanı da maraqlı elmi dəlillər əldə etmş, eramızdan əvvəl III minilliyə aid gil qab parçaları, müxtəlif daşlardan düzəldilmiş əmək alətləri, silah nümunələri (dəvəgözü daşından ox ucluqları) tapmışdır[2]. Q.İsmayılov məqaləsinin birində İstisu yaxınlığındakı tikintinin qədim tunc dövrünə təsadüf etdiyini qeyd edərək, onu həmin dövrdə yaşamış əkinçi-maldar tayfaların iqtisadi və ictimai həyatına aid qiymətli tarixi mənbə kimi dəyərləndirmişdir[3].

Muzey materialları içərisində bazalt daş üzərində atın günəşə qurban kəsilməsi abidəsi tədqiqatçılar tərəfindən öyrənilməmiş mənbələrdəndir. Bunun tunc dövründə rəsm edilməsini güman etmək olar. Abidənin tunc dövrünə aid rəsmlərlə eyni metodlarla hazırlanmasını, oxşarlığını və günəşə sitayişin tunc dövründə mövcud olmasını nəzərə alsaq, o zaman fikrimizdə yanılmadığımızı qeyd edə bilərik.

Muzeyin etnoqrafik materialları da elmi araşdırmalara cəlb olunmayıb. Amma V.M.Sısoyev və Ə.Ələkbərovun bütövlükdə Ki-

---

[2] İsmayılov, Q.S. Abidələr, xatirələr, düşüncələr / Q.S.İsmayılov. – Bakı: Gənclik, – 1981. – 105 s.

[3] İsmayılov, Q.S. Azərbaycanın yeni Qobustanı // – Bakı: Elm və həyat, – 1977. №6, – s. 6-8.

çik Qafqazın cənub-şərq bölgələrinə həsr olunmuş əsərləri, mövzunun öyrənilməsində böyük əhəmiyyət daşıyır. Azərbaycan etnoqrafları öz araşdırmalarında Kəlbəcərin adət-ənənələrinə və minillərdən keçib gəlmiş xalq oyunlarına münasibət bildirmişlər. Etnoqraf Ə.Ələkbərov 1928-ci ildə Kəlbəcər, Şəmkir, Qazax və Göyçə bölgələrində qədim xalq oyunlarını müşahidə etmiş, onun ifaçılıq ənənələrindən bəhs etmişdir[4]. Etnoqraf Ə.Ələkbərov "Kilimarası" oyunun ilk dəfə Kəlbəcərdə qeydə alınmasını bildirmışdır. XX əsrin 70-80-ci illərində onun məşhur ifaçılarının-Kəlbəcərin Ağcakənd sakini, 90 yaşlı Mehralı Mehdiyev və onun oğlanları Süleyman və Şəfaqətin adları qeyd edilir[5].

Tədqiqat işi müxtəlif mənbələr əsasında yazılaraq başa çatdırılımışdır. İstifadə edilmiş mənbələri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Arxiv materialları
2. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi materialları
3. Milli Azərbaycan Tarixi Muzeyi(MATM) materialları
4. Arxeoloji tədqiaqatlara aid yerli mənbələr
5. Etnoqrafik materialları özündə əks etdirən mənbələr
6. Toponimlərə aid mənbələr
7. Azərbaycan dilində yerli tədqiqat əsərləri
8. Türk, rus və ingilis dillərində olan xarici ədəbiyyat
9. Statistik məlumatlar
10. Şəkillər, audio və videomateriallar

Mövzunun müxtəlif aspektlərini özündə əks etdirən mənbələr bir-birini tamamlayır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin başlıca obyekti Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin materiallarının araşdırılması və tədqiqata cəlb edilməsidir. Dissertasiya işinin predmeti isə bəhs olunan məlumatların Azərbaycan tarixinin arxeoloji, etnoqrafik və yazılı mənbə kimi öyrənilməsində əhəmiyyətini araşdırmaq, bu məlumatların elmi əsaslarla tədqiq edilməsidir.

---

[4] Nəcəfli, R. Kəlbəcər Muzeyi Materialları Azərbaycan etnoqrafiyasının öyrənilməsində mənbə kimi. // – Bakı: Bakı Universitetinin xəbərləri, – 2018. № 4, – s 174.
[5] Dəlidağ (Əsgərov), Ş. Kəlbəcərin qəm dastanı, viran olan gülüstanı / Ş.Dəlidağ. – Bakı: Çıraq nəşriyyatı, – 1998. – 315 s.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi materiallarının tarixi mənbə kimi araşdırılması, təhlil edilməsi və onun Azərbaycan tarixinin bütün dövrlərini öyrənmək üçün mənbə kimi əhəmiyyətinin müəyyən edilməsidir. Muzey materialları əsasında Azərbaycan türklərinin tarixi coğrafiyası, təsərrüfat həyatı, o cümlədən xalqımızın xarici düşmənlərə qarşı mübarizə tarixinin öyrənilməsi tədqiqatın əsas məqsədini təşkil edir. Eləcə də Azərbaycanda gənc nəslin mənəvi tərbiyəsində tarix-diyarşünaslıq muzeylərinin rolunu dərindən araşdırmaq bu məqsədə xidmət edir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

♦Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin materiallarının milli tarixlə bağlılığını aydınlaşdırmaq;

♦Azərbaycan tarixinin Muzey materiallarında nə dərəcədə əks olunduğunu təyin etmək;

♦İşğala məruz qalmış Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin və həmin muzeyin əsasları üzərində işğaldan sonra yardılmış muzeyin milli vətənpərvərlik ideyalarının təbliğində rolunu dəyərləndirmək.

♦Muzey materiallarında mağaralar, qədim yaşayış məskənləri və şəhərtipli məskənlərin (Zar və Keştək) əks olunmasını üzə çıxarmaq;

♦Kəlbəcər muzeyi materiallarında qəbirlər və qəbirüstü heykəllər haqqında məlumatların öyrənilməsi;

♦Muzey materiallarında Kəlbəcərin tarixi-memarlıq və dini abidələri, körpülər haqqında məlumatların əks olunmasını üzə çıxarmaq;

♦Kəlbəcər Muzeyi materialları əsasında bölgənin coğrafi şəraiti və tarixi haqqında məlumat vermək;

♦Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi materialları əsasında ictimai münasibətlər haqqında məlumat vermək;

♦Kəlbəcər Muzeyi materialları əsasında bölgənin təsərrüfatı (maldarlıq, əkinçilik, sənətkarlıq) və mədəniyyəti (incəsənət-xalq oyunları, aşıq sənəti, xalq şairləri, lətifələr) haqqında məlumat vermək;

♦Kəlbəcər Muzeyi materiallarında qayaüstü təsvirlərin, ovçuluq səhnələri, vəhşi və yırtıcı heyvan rəsmlərinin əks olunduğunu göstərmək;

♦Qayaüstü rəsmlərdə dini təsəvvürlərin, ideoqrafik yazı nümunələrinin, mərasim və etiqadlara aid səhnələrin, kütləvi rəqs səhnələrinin olması haqqında məlumatlar vermək;

♦Muzey materiallarında sənədlər və audio (uzunömürlülərin səsi, 1918-ci il erməni soyqırımı ilə bağlı, Basarkeçər hadisələri) yazılar əsasında hadisələri dəyərləndirmək;

♦Muzey materaillarında bölgənin tarixi yer adları, toponimləri haqqında məlumat vermək.

**Tədqiqat metodları.** Tədqiq olunan dissertasiya işinin metodoloji əsasını obyektivlik və tarixilik prinsipləri, bütün mənbə və ədəbiyyatın kompleks şəkildə və tənqidi təhlil əsasında müqayisəli şəkildə araşdırılmasına söykənən obyektiv tarixi tədqiqat metodu təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

♦ Mövzunun tədqiqi üçün əsas olan istər arxeoloji materiallar (daş, tunc və dəmir dövrü), istərsə də etnoqrafik bölmədəki xalq oyunları, o cümlədən "Kilimarası" və "Maraloyunu" oyunları Azərbaycan tarixini öyrənmək üçün dəyərli mənbə olaraq bu oyunların və arxeoloji tapıntıların Azərbaycan xalqına məxsusluğu və Kəlbəcər bölgəsində yarandığı sübut olunmuşdur.

♦ Kəlbəcər ərazisində mağara düşərgəsi ətrafında aparılan arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insanların ilk əmək alətləri bir neçə bölgədə, o cümlədən bu yerlərdə hazırlanmışdır. Muzeydə nümayiş etdirilən eksponatlardan təkcə obsidian ox ucluqları bunu sübut etməyə kifayət edər. Bunun üçün lazım olan xammal ehtiyyatları, o cümlədən obsidianın (dəvəgözü) böyük miqdarda xammal ehtiyatı vardır.

♦ Muzey materialları içərisində bazalt daş üzərində atın günəşə qurban kəsilməsi abidəsi təhlil edilərək ulularımızın islamaqədərki dini təsəvvürləri, etiqadları, ənənələri üzə çıxarılır, bu ulduzun əcdadlarımızın həyatında önəmli yer tutduğu, onların təbiətlə

münasibətlərində işıqsız yaşamağın mümkünsüzlüyünü dərk etdiklərini sübut edilir.

♦Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi Ekspedisiya qrupunun aşkarladığı 3500-dən artıq qayaüstü təsvirin, o cümlədən ümumilikdə Kəlbəcər ərazisində mövcud olan 5000-ə qədər rəsmlərin beş min ildən artıq yaşı olduğu və arxeoloji materiallar, etnoqrafik müşahidələr və tədqiqat əsərləri ilə müqayisəli şəkildə təhlil edilərək elmi əhəmiyyətə malik olduğu öz əksini tapmışdır.

♦ Kəlbəcər Muzeyi materialları əsasında erkən orta əsrlərdə Zar şəhərtipli məskənin mövcud olduğu barədə fikirlər təhlil edilərək iddiaların haqlı olduğu öz təsdiqini tapır. Eləcə də əvvəlki tədqiqat əsərlərində Kəlbəcərin Keştək kəndi ərazisində orta əsr mənbələrində Matris və ya Mayris adı ilə tanınan şəhərtipli məskəninin həqiqətən mövcud olduğu muzey materialları və digər mənbələrlə təhlil edilərək sübuta yetirilir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi materiallarını mənbəşünaslıq baxımından elmi dövriyyəyə cəlb edən ilk tədqiqat işidir.

♦ ilk dəfə Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin materialları mənbə baxımından sistemləşdirilmiş, mənbələrin növləri və dövrləri əsaslandırılmışdır

♦ ilk dəfə Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində toplanmış qədim dövrə aid materiallar və əyani nümunələr elmi ictimaiyyətə çatdırılmışdır.

♦ ilk dəfə Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində toplanmış materiallar, o cümlədən Zar mağarası nümunəsində qədim insanların inanclarına, yaşayış tərzinə, əmək alətlərinə münasibət bildirilmişdir.

♦ ilk dəfə Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində toplanan materiallar, o cümlədən qayaüstü təsvirlər ilə Azərbaycanın başqa bölgələrində tapılan qayaüstü təsvirlər, ideoqrafik yazı nümunələri, mərasim və etiqadlar müqayisəli təhlil edilmişdir.

♦ ilk dəfə muzey materialları əsasında qədim insanların yaşamaq uğrunda mübarizədə mağaralardan istifadənin forma və metodları tədqiq olunmuşdur.

♦ ilk dəfə muzey materialları əsasında Kəlbəcər bölgəsinin uzunömürlülər diyarı olması, bu bölgədə ailə institutunun möhkəm dayaqlara söykənməsi mühüm faktlarla təsdiq olunmuşdur.

♦ ilk dəfə muzey materialları əsasında bölgənin tarixi yer adları, toponimləri haqqında tam təsəvvür yardılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi çoxsaylı mənbələr əsasında tamamlanmışdır. Muzey materialları ilə yanaşı elmi ədəbiyyat və dövrü mətbuata müraciət edilmişdir. Elmi nəticələr və irəli sürülmüş təkliflər problemə yeni yanaşma prizmasından tədqiqat işinin əhəmiyyətli olduğunun göstəricisidir.

Dissertant problemin və əldə etdiyi materialların öyrənilməsi ilə kifayətlənməmiş, onları təhlil etmiş və ziddiyyətləri aşkara çıxarmağa çalışmışdır. Dissertasiya işinin nəticələrindən muzeyşünaslığın öyrənilməsi və bu sahəyə dair əsərlərin yaranmasında, mədəni irsimizin öyrənilməsi və təbliğində, vətənpərvərlik ideyalarının təbliğində, Azərbaycanın qədim, orta, yeni və qismən də çağdaş dövrünü əhatə edən tarixi əsərlərin yazılmasında, ali məktəb tələbələrinin kurs, magistrantların dissertasiya işlərinin yazılmasında, dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında, xüsusi kursların hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Dissertasiyanın mövzusu Bakı Dövlət Universiteti Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasında (25.01.2016, 6 saylı protokol), Tarix fakültəsinin Elmi Şurasında (12.02. 2016-cı il, 5 saylı protokol) və AMEA Humanitar və İctimai Elmlər Üzrə Problem Şurasının 2016-cı il 06 may tarixi iclasında (7 saylı protokol) təsdiq olunmuşdur. Dissertasiya işinin əsas məzmunu müəllifin Bakı Dövlət Universitetinin elmi konfranslarında etdiyi məruzələrdə və çap edilmiş elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasında yerinə yetirilib.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları"na uyğun şəkildə hazırlanmışdır. Giriş, 3 fəsil və nəticə daxil olmaqla dissertasiyanın ümumi həcmi 281 567 işarədən ibarətdir.

Giriş: işarə sayı – 25025, I fəsil: işarə sayı – 113744, II fəsil: işarə sayı – 101886, III fəsil: işarə sayı – 25421, nəticə: işarə sayı – 15491.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, işə əlavə olunmuş şəkillər və cədvəllərdən ibarətdir.

Tədqiqat işinin "**Giriş**" ində tədqiq olunan mövzunun aktuallığı və elmi yeniliyi əsaslandırılmış, öyrənilmə səviyyəsi və mənbəşünaslığı şərh edilmiş, xronoloji çərçivəsi, predmeti, dissertasiya işinin məqsəd və və vəzifələri müəyyənləşdirilmiş, nəzəri metodoloji əsası, elmi yeniliyi, elmi nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və quruluşu göstərilmişdir.

**"Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi Materialları Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi"** adlı birinci fəsli dörd yarımfəsildən ibarətdir. **"Kəlbəcər Muzeyinin arxeoloji materialları Azərbaycanın qədim və orta əsrlər tarixini öyrənmək üçün mənbə kimi"** adlanan **birinci yarımfəsildə** Azərbaycanın qədim və orta əsrlər tarixi ilə bağlı məlumatlar araşdırılmış, tarixşünaslıqda və özəlliklə də erməni müəlliflərinin əsərlərində rast gəlinən dolaşıq fikirlər təhlil edilərək aydınlıq gətirilmişdir. Muzeyin qədim dövr salonunda nümayiş etdirilən beş min ildən çox yaşı olan obsidiandan (dəvəgözündən) oxlar, "buynuzdan ox atan", küp qəbirlərdən əldə edilən dəmir nizə ucluqları, daş qəlyanlar, daşdan insan skeleti, iri xumdar, daşdan və saxsıdan hazırlanmış qaraçıraqlar və oxunması mümkün olmayan daş üzərindəki şəbəkə yazı, torpaqdan çıxan qədim alətlər, Tərtərçay qumlağından tapılan, azı 150 milyon il yaşı olan daşlaşmış ilbiz, Kəlbəcərdə toxunmuş xalça növləri və digər eksponatlar müxtəlif mənbələrlə müqayisəli şəkildə şərh edilmişdir. Muzey materialları Azərbaycan ərazisində qədim insanların həyat tərzi, onların məşğuliyyəti, xüsusilə də ovçuluqla məşğul olmaları barədə önəmli bilgilər verir. Azərbaycanın dilbər guşəsi olan Kəlbəcərdə qədim insanlar arasında ovçuluğun inkişaf etməsinə, onun flora və fauna cəhətdən zəngin olması böyük zəmin yaratmışdır.

Tədqiqat zamanı muzey materiallarında Kəlbəcər bölgəsinin arxeoloju tapıntılarla zəngin olması üzə çıxır. Muzeydə nümayiş etdirilən çaxmaqdaşı və vulkanik şüşədən hazırlanmış qədim əmək alətləri və insanların həyatında onların rolu təhlil edilir. Əmək alətlərinin çaxmaqdaşı və vulkanik şüşədən (dəvəközü-obsidian) hazırlanmasını, alimlər bu daşların asanlıqla parçalanması ilə əlaqələndirirlər. Bu daşlar parçalandıqda itiuclu qəlpələrə ayrılır. Həmin qəlpələri isə ikinci dəfə işləyib lazım olan alət şəklinə salmaq mümkündür[6]. Kəlbəcər muzeyində qorunub saxlanan obsidian əmək alətləri və ox ucluqları bu mənada elmi cəhətdən maraq doğurur. Rayonunun Məmmədsəfi kəndinin ərazisindən aşkarlanıb muzeyə təhvil verilən 4 ədəd qara şəffaf obsidian əmək alətləri tipoloji-funksional cəhətdən olduqca zəngindir.

Muzeyin dördüncü salonunda yerləşdirilmiş buynuzdan ox atan elmi cəhətdən diqqəti cəlb edən nadir tapıntılardandır. Abdullauşağı kəndində kalafa yeri qazılarkən aşkarlanmış ox atan alət, muzeyin digər materialları kimi elmi tədqiqat obyekti olmamış, mənbə baxımından təhlil edilməmişdir. Qeyd edək ki, heç bir muzeydə bu tip eksponata rast gəlinmir[7]. Düşünürük ki, bu eksponatı ulu əcdadlarımızın hazırladıqları ən qədim ibtidai silahlardan hesab etmək olar. Muzeydəki obsidian oxlar da, ehtimal ki, buynuzdan hazırlanmış oxatan alətə qoyularaq ov zamanı istifadə edilib. Muzeyin ikinci salonunda qorunub saxlanılan Tunc və bürünc qadın zinət əşyaları Azərbaycanın qədim dövr tarixinin öyrənilməsində dəyərli mənbələrdən biridir. Qadın qəbrindən tapılıb nümayiş etdirilən, tərkibi bürüncdən olan keçi totemi (qadın boyunbağısı.1631-ci inventar) də çox maraqlıdır.[8]

Tarixçi A.Məmmədov keçi toteminə münasibət bildirərkən yazır ki, aslan, at, qoyun kimi keçi də günəşin bəlgəsi olduğu üçün nəsil artımını himayə edir. Və bu təsadüfi deyildir, çünki günəş tanrısı həmişə məhsuldarlığa və firəvanlığa kömək edir. Təsadüfi deyil ki, Azərbaycan xalqı vaxtilə yazla payız, qışla yaz arasında mübarizə

---

[6] Hüseynov, M. Uzaq daş dövrü / M.Hüseynov. – Bakı: Gənclik, – 1973. – 68 s.

[7] Dəlidağ (Əsgərov), Ş. Şəhid muzey, Şahid muzey / Ş.Dəlidağ (Əsgərov). – Bakı: Sabah, – 1997. – 72 s.

[8]Dəlidağ (Əsgərov), Ş. Şəhid muzey, Şahid muzey / Ş.Dəlidağ (Əsgərov). – Bakı: Sabah, – 1997. – 72 s.; Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, AF inv 1631- Tunc qadın zinət əşyaları, tunc sırğa, tunc boyunbağı, gil muncuqlar.

ayinini icra edirdilər. Bu inanc "Kosa-Kosa" ritual oyununun yaranmasına səbəb olmuşdur. Kosa qışın, onu öldürən keçi isə yayın simvoludur[9].

Qədim tariximizin öyrənilməsi və təbliği işində muzey materialları içərisində dəyərli mənbələrdən biri də qurd totemidir. Türk tayfalarının totem kimi qəbul etdiyi qurdla bağlı nişanələr bu tayfaların yayıldığı əksər arealda rast gəlinir. Tapıntı Azərbaycan tarixinin öyrənilməsində dəyərli mənbələrdən biridir[10].

Dissertasiyanın "**Muzey materiallarında mağaralar, qədim yaşayış məskənləri və şəhərtipli məskənlər"** adlanan birinci fəslin **ikinci yarımfəsli** Kəlbəcərdə olan mağaralar, qədim yaşayış məskənləri və şəhərtipli məskənlər haqqında məlumat verir. Mənbələrdə Kəlbəcərdə olan Başlıbel qrupuna aid Barıtlı, Əkizlər, Şirran, Şordərə və s.adlı mağaraların adları çəkilir. Başlıbel qrupunda merkel çöküntülərində inkişaf etmiş ən xarakterik mağara "Nəbi kahası"dır. Qeyd edək ki, erməni silahlı qüvvələri tərəfindən törədilən Başlıbel faciəsinin baş verdiyi ərazilərdən biri də "Nəbi kahası" olmuşdur. M.Hüseynov, Ə.Cəfərov və M.Mənsurovdan ibarət Paleolit arxeoloji ekspediyası 1981 və 1987-ci illərdə Kəlbəcər rayonu ərazisində apardığı kəşfiyyat işləri zamanı Orta Şurtan və Zar açıq paleolit abidələrini qeydə almışdır[11]. Ə.Cəfərov Kəlbəcərin Zar düşərgəsində üst paleolit mədəniyyətinə aid əmək alətləri tapıldığını qeyd edir[12].

Kəlbəcər rayonunun İstisu kurortu yaxınlığından aşkar edilmiş tunc dövrünə aid qədim yaşayış məskəni ulu babalarımızın təxminən beş min il bundan əvvəlki həyat tərzinə işıq saçan mənbədir[13]. Kəlbəcər rayonunun Zar kəndinin yerləşdiyi ərazidə ulu əcdadlarımızın minillərdən bu günədək yaddaşlardan silinməyən tarixi izləri burada qədim şəhər tipli yaşayış məskəni-Zar şəhər xarabalığından (Şəhri

---

[9]Мамедов, А. Культ Солнца в доисламской системе верований Азербайджанского народа / – Ankara: Akademik Tarih ve Düşünce Dergisi, – c. 4. – 2017. Sayı 11 – s.200-209.

[10] Dəlidağ (Əsgərov), Ş. Kəlbəcərin qəm dastanı, viran olan gülüstanı / Ş.Dəlidağ. – Bakı: Çıraq nəşriyyatı, – 1998. – 315 s.

[11] Azərbaycan arxeologiyası: [6 cilddə]. – Bakı: Şərq-Qərb, – c.1. – 2008. – 448 s.

[12] Cəfərov, Ə. Azərbaycanın ilk sakinləri / Ə.Cəfərov. – Bakı: Elm, – 2004. – 219 s

[13] Kəlbəcər. T.D. Muz. tablo-şəkil 857, Qədim yaşayış məskəni maketi .İnv. 238

Zar) xəbər verir[14].Tarixi mənbələrdə Zar adı ilə bağlı məlumatlar, toponimlər və yerli tədqiqatçıların məqalələrinin ümumi təhlili onu deməyə əsas verir ki, Şəhri Zar adlı qədim şəhərin Kəllbəcərin indiki Zar kəndinin ərazisində mövcud olduğuna şübhə yoxdur[15]. Muzey materiallarına görə Kəlbəcər ərazisində mövcud olmuş qədim şəhər-tipli məskənlərdən biri də Keştək olmuşdur. Keştək sıldırım qayalar üzərində, böyük bir düzənlikdə yerləşir. Quruluşuna, strukturuna görə şəhər əlamətlərini özündə əks etdirir. Bu ərazidəki məbəd qalıqları və ətrafdan aşkarlanan saxsı qablar, qədim dövrə məxsus qəbristanlıqlar, kütləvi şəkildə insan skeletləri burada antik dövrdən yaşayışın mövcud olduğunu sübut edir[16].

Birinci fəslin üçüncü yarımfəsli **Kəlbəcər muzeyi materiallarında qəbirlər, qəbirüstü heykəllər (at və qoç fiqurları) və ziyarətgahlar** adlanır. Kəlbəcər muzeyinin materialları qəbirlər, qəbirüstü heykəllər haqqında zəngin məlumatlar verir. Muzey materialları içərisində küp qəbirləri xüsusilə diqqəti cəlb edir. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi materiallarında qəbirlər və qəbirüstü heykəllər ayrıca bir sahə təşkil edir. Kəlbəcər şəhərinin salındığı "Qayanın başı" deyilən düzəngahda üst-üstə üç-dörd qat qəbirlər aşkar edilmişdir[17].

Tikinti işləri aparılarkən üzə çıxan çoxtəbəqəli qəbirlərdən aşkarlanan gil muncuqlar eramızdan əvvəlki IV-III minilliklərə təsadüf edir[18]. 1990-cı il martın sonlarında geoloq Fəxrəddin Alıyevin Hopurlu çayının aşağısındakı qədim qəbristanlıqdan aşkarlayaraq muzeyə təqdim etdiyi nadir tapıntı burada çox qədim bir qəbristanlıqdan xəbər verir.

---

[14]Təhməzov, M.O. Kəlbəcər: ensiklopedik məlumatlar, toponimlər-fotoşəkillər-xəritələr / M.O.Təhməzov. – Bakı: Azərnəşr, – 2011. – 544 s.

[15]Nəcəfli, R. Kəlbəcər Muzeyinin Materialları Azərbaycanın Arxeoloji abidələrinin öyrənilməsində mənbə kimi. // – Bakı: Pedaqoji Universitetin xəbərləri. – c. 67. – 2019. №3, – s 181.

[16] Bağırzadə, C.V. Qafqaz Albaniyasının ilk orta əsr Matris (Mayris) şəhərinin tarixi-arxeoloji tədqiqi haqqında / – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2014. № 2, – s. 86.

[17] Uluxanlı, Ə. Uluxanlı Qaraçanlıları şəcərəsi / Ə.Uluxanlı. – Bakı: Elm və Təhsil, – 2019. – 768 s.

[18] Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, AF inv 1631- Tunc qadın zinət əşyaları, tunc sırğa, tunc boyunbağı, gil muncuqlar.

**“Muzey materiallarında Kəlbəcərin tarixi memarlıq və dini abidələri, körpülər”** adlanan birinci fəslin dördüncü yarımfəsli Kəlbəcərin qalaları, xristian alban məbədləri, məscidlər və körpülərlə bağlı məlumatı əks etdirir. Bu abidələr sırasında el arasında “Löh və ya Lök qalası” kimi tanınan “Lev qalası”, “Comərd qalası”, “Uluxan qalası” (“Qaraçanlı qalası”), “Qalaboynu qalası”, “Zivel qalası”, “Mənsim qalası”, Qazıxan qalası, Çarabert qalası, Laçınqala (Qanlıqala) və. s. qalaların adlarını çəkmək olar. Mənbələrdə Arranın anası sayılan Bərdədən Dəbilə gedən ticarət yolunun Tərtər çayı ətrafından keçməsi barədə məlumatlara rast gəlinir. Odur ki, orta əsr insanları karvan yollarının təhlükəsizliyini təmin etmək üçün möhtəşəm qayaların üzərində və ya ətrafında qalalar tikmişlər[19].

Teymur Bünyadov Tərtər çayı hövzəsindəki Lev qalasını Misir ehramları ilə müqayisə edərək, bu qalanın daha çətin şəraitdə və ağır zəhmət hesabına yarandığını bildirir[20]. Qala ilə bağlı “yeddi qız” əfsanəsi də muzeyin əldə etdiyi məlumatlara daxildir.

Mənbələrdə Xotavəng (Xudavəng) kimi qeyd olunan məbəd üzərindəki yazı və bəzək üçün işlədilən daşların Dəmirçi kahasında yonulub hazırlanması sirri tədqiqat zamanı sübuta yetirilmişdir[21].

Qarabağ bölgəsində, o cümlədən Kəlbəcər ərazisində olan xristian məbədləri ilə bağlı elmi mübahisələr doğuran müxtəlif fikirlər mövcuddur. Hələ VII əsrdən Albaniya ərazisində islam dininin qəbul edilməsi və yalnız Qarabağın kiçik bir parçasında xristianlığın qalması ermənilərin gələcəkdəki planlarına yardım etmişdir. Alban katalikosluğunun erməni kilsəsinə tabe olması ilə bağlı Ziya Bünyadov dolğun məlumat verir. O, Gəncəli Kirakosa istinad edərək yazır ki, VIII əsrin əvvəllərində erməni katalikosu İlya, xəlifə Əbdül-Malikə (685-705) xəbərçilik edib bildirmişdir ki, Albanlar xilafət əleyhinə Bizansla ittifaq bağlayırlar. Bundan sonra Əbdül-Malik Arran katali-

---

[19]Məmmədov, A.M Gəncə və onun ətrafının tarixi-arxeoloji tədqiqi (Ən qədim zamanlardan XIX əsrə qədər) / A.M.Məmmədov. – Gəncə: Elm, – 2008. – s. 217

[20] Bünyadov, T.Ə. Mərd qalalar, sərt qayalar / T.Ə.Bünyadov.– Bakı: Azərnəşr, – 1986. – s. 65

[21]Dəlidağ (Əsgərov), Ş. Kəlbəcərin qəm dastanı, viran olan gülüstanı / Ş.Dəlidağ (Əsgərov). – Bakı: Çıraq, – 1998. – 315 s.

koslarını İlyaya tabe etdi[22].Ramin Əlizadə və Elnur Nəciyevin həmmüəllif olduqları “Qarabağın Alban-Qıpçaq tarixinə dair” məqalədə bu bölgənin tarixinə qısaca nəzər salınır. Bu yurdun tarixində orta əsrlərdə ən fəal türk tayfalarından olan qıpçaqların dərin iz buraxdığından söz açılır[23]. Azərbaycan ərazisinə şimaldan qıpçaq ellərinin gəlib məskunlaşması müxtəlif vaxtlarda baş vermişdir. Onların müəyyən hissəsi XIII əsrdə monqolların Şimali Qafqazı tutmasından sonra Dərbənddən keçib buraya gəlmişlər[24].

Dissetasiyanın **“Kəlbəcər muzeyinin materialları Azərbaycan etnoqrafiyasının öyrənilməsində mənbə kimi”** adlı **ikinci fəsli** üç yarımfəsildən ibarətdir. İkinci fəslin “**Kəlbəcər Muzeyi materialları bölgənin coğrafi şəraiti və tarixi haqqında”** adlı birinci yarımfəslində Kəlbəcər bölgəsinin coğrafi şəraiti, o cümlədən onun təbiəti, çayları, zəngin meşələri, dərman bitkiləri, mineral istisuyu, qızıl yataqları, qiymətli daşları və bölgənin tarixi haqqında məlumat verilir. Coğrafi şəraitinə gəldikdə Kəlbəcər Kiçik Qafqazın ən yüksək dağ rayonudur. Ən hündür zirvəsi Murovdağ silsiləsində yerləşən Camışdağ zirvəsidir (3724 m). Hinaldağ (3367 m), Qarabağ silsiləsinin birləşdiyi Mıxtökən silsiləsində Dəlidağ (3616 m) və Şərqi Göyçə silsiləsində yerləşən Keytidağı kimi əzəmətli dağlara malikdir[25]. Akademik M.Qaşqaya görə Kəlbəcər kurort rayonunun mineral suları, əsasən çıxdığı yerlərə görə 5 yerə bölünür: Tərtər çayının sağ sahilində çayın başlandığı yer Bağırsaq adlanır, ikincisi Yuxarı İstisu, üçüncüsü Aşağı İstisu və ya fontan, dördüncüsü Boyaqlı, beşincisi isə Kəlbəcər rayon mərkəzi ətrafında çıxan mineral sular[26].

Kəlbəcər inzibati rayon kimi 1930-cu ildə təşkil edilmişdir. Ermənistan silahlı qüvvələri tərəfindən rayon 02 aprel 1993-cü ildə işğal edilərkən yüzlərlə tarixi abidələr kimi Kəlbəcər Tarix-Diyarşü-

---

[22]Bünyadov, Z. Azərbaycan VII- IX əsrlərdə / Z.Bünyadov. – Bakı: Azərnəşr, – 1989. – 336 s.

[23] Əlizadə, R və Nəciyev, E. Qarabağın Alban-Qıpçaq tarixinə dair / R.Əlizadə, E.Nəciyev. – Bakı: Turxan NPB, – 2021. – 72 s.

[24] Qeybullayev, Q.Ə. Qarabağ. Etnik və siyasi tarixinə dair / Q.Ə.Qeybullayev. – Bakı: Elm, – 1990. – 248 s.

[25] Coğrafiya məlumat kitabı. – Bakı: [s.n.],– 2000, – 194 s.

[26] Süleymanlı, Y. İstisu Möcüzələr çeşməsi / Y.Süleymanlı. – Bakı: Adiloğlu, – 2009. – 144 s.

naslıq Muzeyi də 2020-ci il noyabrın 25-dək erməni girovluğunda qaldı. Bu diyar ən qədim insan məskənlərindən biri və daha doğrusu birincilərindəndir. Zar mağarası və eyni adlı açıq yaşayış yeri bunu sübut edən əsas faktlardandır.

Kəlbəcər ərazi baxımından Qarabağ əyalətində yerləşir. Albaniyanın Xaçın knyalığının tərkibində olmuş bu bölgə, bizim eranın III əsrində Sasani imperiyasının tərkibinə qatılmışdır. Qarabağ əyalətinin VIII əsrdən XIX əsrədək tarixinin qısa xronikasına nəzər yetirək: 705-ci ildən Ərəb xilafətinin, IX-X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Salarilərin, XI-XII əsrlərdə Şəddadilərin, XII-XIII əsrlərdə Atabəylərin, XIII əsrin II yarısından XIV əsrədək Hülakülərin, 1359-cu ildən 1410-cuilədək Cəlairilərin, 1410-cu ildən 1468-ci ilədək Baharlı dövlətinin, 1468-ci ildən 1501-ci ilədək Bayandurların, 1501-ci ildən başlayaraq 1736-cı ilədək Səfəvilər dövlətində mərkəzi Gəncə olan Qarabağ bələrbəyliyinin, 1736-cı ildən 1747-ci ilədək Nadir şahın yaratdığı Əfşarlar dövlətinin tərkibində olmuşdur. Nadir şahın sui qəsd nəticəsində öldürülməsindən sonra Qarabağ 1748-ci ildən 1805-ci il Kürəkçay müqaviləsinədək müstəqil xanlıq kimi idarə olunmuş, 1805-ci ildən 1822-ci ilədək isə daxili müstəqilliyini saxlamaqla Rusiya təbəəliyini qəbul etmişdir. Qeyd edək kii, bu xronika elmi ədəbiyatda çoxdan təsdiqini tapmışdır. Dissertasiya işində Kəlbəcərin Azərbaycan Xalq Cümhuriyyəti və sovet hakimiyyəti dövrünə aid elmi əhəmiyyət kəsb edən faktlar, 1918-1920-ci illərdə ermənilərin Zəngəzur, Basarkeçər və Cavanşir qəzalarında törətdikləri soyqırımlar da yer alıb. Totalitar idarəetmə sisteminin insanların siyasi dünyagörüşləri ilə yanaşı onların mənəvi həyatlarına da dinclik verməməsi, xüsusilə din xadimlərinin hər an izlənilərək təqib olunması araşdırılaraq təhlil edilmişdir.

1993-cü ilin aprelin 2-də Kəlbəcərin işğalı zamanı Agdaban və Başlıbel kəndlərində erməni vandalları tərəfindən törədilən kütləvi qətliamlar Xocalı hadisələri ilə müqayisə edilmişdir. Agdabanda öldürülən 67 nəfərin 39-u xüsusi qəddarlıqla qətlə yetirlmişdir. İşğal zamanı Başlıbel kəndinin əsasən qadınlar, uşaqlar, qocalar və yataq xəstələrindən ibarət 76 sakini işğalçı ordunun mühasirəsində qalmış, aprelin 2-də kənd sakinlərinin bir qrupu mühasirədən çıxmağa çalışsalar da, onlardan 9 nəfər yolda qətlə yetirilmiş, 5 nəfər isə girov götürülmüşdü. Kənddə qalan 62 nəfər isə dağlardakı təbii mağaralara – kaha-

lara sığınmışdılar. Amma onlar orada cəmi 18 gün gizli yaşaya bilmişdilər. Aprelin 18-də erməni hərbçiləri dinc sakinlərin sığındığı kahaların yerini aşkarladıqdan sonra onların üzərinə silahlı hücuma keçmiş, kəndin 3 kilometrliyində "Portda" adlanan ərazidəki kahalara soxulmaqla dinc sakinlərdən 14 nəfəri girov götürmüş, 18 nəfəri qətlə yetirmişlər. Sağ qalan 30 nəfər isə sığınacaq yerlərini kəndin ərazisindəki digər kahalara dəyişərək mühasirə həyatını davam etdirmişdi...

**"Kəlbəcər Tarix-diyarşünaslıq Muzeyi materialları ictimai münasibətlər haqqında"** adlanan **II fəslin ikinci yarımfəslində** ictimai münasibətlərin formalaşmasında Ağsaqqallıq institunun rolu araşdırılaraq təhlil edilir, onun da ailə institutunun formalaşmasına təsiri şərh edilir. Muzey materiallarında 50 il və daha çox bir yerdə yaşayan ər-arvadların xoşbəxt həyat tarixini vərəqlədikcə ağsaqqallıq və ailə institutunun bu bölgədə möhkəm olduğu təsdiqlənmiş olur[27]. Tədqiqat zamanı aydın olur ki, Kəlbəcərdə ictimai münasibətlərin formalaşmış olduğunu göstərən bir nümunə də, buranın sakinləri olan türklərlə kürdlər arasında qardaşlaşmış birliyin mövcud olmasıdır. İkinci Qarabağ müharibəsi də göstərdi ki, nəinki Kəlbəcərdə, bütövlükdə Azərbaycan ərazisində yaşayan türklər, kürdlər, talışlar, ləzgilər və digər millətlərin nümayəndələri həmrəy oldular, ümumi düşmənə qarşı bir yumruğa çevrildilər.

**"Təsərrüfat (maldarlıq, əkinçilik, sənətkarlıq) və mədəniyyət (incəsənt-xalq oyunları, ədəbi mühit (aşıq sənəti, xalq şairləri, lətifələr**)" adlalan ikinci fəslin üçüncü yarımfəslində Kəlbəcər bölgəsində maldarlığın, əkinçiliyin, sənətkarlığın)və mədəniyyətin ayrı-ayrı sahələri haqqında məlumat verilir. Muzey materialları və bölgə haqqında məlumat verən tədqiqqatçıların əsərləri müqayisəli şəkildə təhlil edilir. A.Bukşpan yazırdı ki, Qoturlu bəyləri Kəlbəcərdə 80.000 hektar otlaq və 45.000 hektar əkin sahəsinə malik idilər[28]. Etnoqraf Ə. Ələkbərov Kəlbəcərdə arıçılığn inkişafı barədə məlumat verir. Kəlbəcərin coğrafi şəraiti-zəngin meşələri, dörd mindən artıq çiçəkli bitkiləri, şirin suları və mülayim havası arıların burada yaşa-

---

[27] Dəlidağ (Əsgərov), Ş. Şəhid Muzey, Şahid Muzey / Ş.Dəlidağ (Əsgərov). – Bakı: Sabah, – 1997. – 72 s.

[28] Məhərrəmova, S. XIX-XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin maddi mədəniyyəti və təsərrüfatı / S.Məhərrəmova. – Bakı: Elm nəşriyyatı, – 2007. – 208 s.

ması və inkişafı üçün münbit şərait yaradır[29]. Muzeyin kənd təssərrüfatı şöbəsindəki salonda bir cüt öküz maketinə qoşulmuş həqiqi kotan və onun hissəcikləri Kəlbəcər bölgəsində əkinçiliyin inkişaf etdiyinin kiçik bir nişanəsidir. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin eksponatları içərisində muzey materialı kimi tədqiq edilməmiş kənd təsərrüfatı alətlərindən biri də ağac vəldir. Tunc dövrünün yadigarı olan bu kənd təsərrüfatı aləti adətən mökəm ağacdan, xüsusilə də palıddan hazırlanırdı. Yerli iqlim şəraitindən, taxıl növünün bəlimindən və qoşqu qüvvəsindən asılı olaraq, vəlin tay və qoşa olmaqla, quruluşca iki növünə təsadüf olunurdu[30]. Muzey materiallarında sənətkarlıq və onun ayrı-ayrı sahələri böyük maraq doğurur. Arxeoloji tədqiqatlar və etnoqrafik müşahidələr bu bölgədə daşişləmənin, keçəçilyin[31] qədim tikmə sənətinin(tikmələr-maral rəsmi, at rəsmi, gül rəsmi), toxuculuğun, o cümlədən xalçaçılığın inkişaf etdiyini göstərir. Burada xalçaçılığın xovlu və xovsuz (kilim, sumax, palaz, şəddə, vərni, farmaş və s.) növünə rast gəlinir[32]. Muzeyin altıncı salonu xalq oyunları və yerli adət-ənənələrə bağlı materiallarla formalaşmışdır.

Ulularımızın keçmişdə icra etdikləri xalq oyunları, dini inancları və həyata keçirdikləri digər ənənələr muzeyin bu guşəsində sanki canlıdr, əyanidir. “Kilimarası” – “oyuq”(kukla) tamaşası, “Maraloyunu”, “İynəatma”, “Ayın tutulması”, “Tale”, “Yeddi Hünər” və s. oyunlar və ənənələr elmi maraq kəsb edir. “Yeddi Hünər” oyunu yeddi oyundan – “Yeddi Çoban”, “Yeddi Pəri”, “Yeddi Çapar”, “Yeddi Nər”, “Yeddi Qaçar”, “Yeddi Ovçu” və “Yeddi Gəlin”dən ibarətdir. “Yeddi Hünər” oyununun mənşəyini araşdıran Şamil Əsgərov hesab edir ki, bu oyunun dinlə əlaqəsi yoxdur və onluq say sisteminin hələ yaranmadığı, yeddilik say sisteminin mövcud olduğu dövrdə meydana gəlmişdir[33].

---

29 Алекперов, А.К. Исследования по археологии и этнографии Азербайджана / А.К.Алекперов. – Баку: Изд-во Академии наук Азерб. ССР, – 1960. – 248 с.

30 Mustafayev, A. Azərbaycanın maddi mədəni irsi / A.Mustafayev. – Bakı: Adiloğlu nəşriyyatı, –2010. – 640 s.

31 Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi Etnoqrafiya Fondu EF inv 25 b, keçəçilik sənətinə aid Səyyad Quliyevin səsi.

32 Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin Etnoqrafiya Fondu, EF inv-14- xalça növlərinin fotoları-kilim, palaz, şəddə. 98 ədəd

33 Dəlidağ (Əsgərov), Ş. Gəlməli, görməli muzey / – Bakı: Qobustan jurnalı, – 1985. №2, – s. 71-74.

Bu yarımfəsildə yer alan mövzulardan biri də Kəlbəcərin Ədəbi mühitidir. Kəlbəcər ədəbi mühiti Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi materiallarında özünəməxsus yer tutur. Muzey yarandığı gündən Azərbaycan etnoqrafiyasının öyrənilməsi və təbliğində, o cümlədən Kəlbəcər bölgəsinin ədəbi mühitinin təbliğində önəmli rol oynamışdır. Kəlbəcər ədəbi mühitinin canlı nümayəndəsi, tədqiqatçı alim lham Məmmədli ilk dəfə olaraq bölgənin ədəbi mühitini elmi şəkildə araşdırmışdır. Alim öz monaqrafiyasında Kəlbəcər ədəbi mühitini Azərbaycan ədəbiyyatının bir parçası olduğunu qeyd etməklə yanaşı, bu mühitin özünəməxsus inkişaf yolu kecdiyini, zəngin ədəbi nümunələrə, fərqli bədii çalarlara və yüksək estetik qaynaqlara malik olduğunu diqqətə çatdırmışdır[34]

**"Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində Piktoqrafik, ideoqrafik yazılar və digər mənbələr"** adlı üçüncü fəsli üç yarımfəsildən ibarətdir. Üçüncü fəslin birinci yarımfəsli "**Kəlbəcər Muzeyi materiallarında qayaüstü təsvirlər: Ovçuluq səhnələri, vəhşi və yırtıcı heyvan rəsmləri"** adlanır. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin ("Şəhid Muzey"in) qədim dövrünə həsr olunmuş ikinci salonu və muzeyin həyəti bu bölgənin qayaüstü təsvirlərini canlı şəkildə tamaşaçıya təqdim edirdi. Bu ekspozisiya salonları sanki nağıllar aləmini xatırladır. Eləcə də Kəlbəcər dağlarından gətirilmiş 28 ədəd sal qayalar muzeyin həyətində canlı tarix olaraq ulularımızın həyat tərzinə işıq saçırdı. Kəlbəcər ərazisindəki qaya rəsmləri ilk və orta tunc dövrünə aid olub, əsasən Qırmızı dağın ətəyində, İstisudan 20 km aralı ərazilərdə qərar tutub. Gəlin Qayası, Zalxa Gölü, Sərçəli dağ, Soltan Heydər, Qonaqgörməz, Yüzbulaq, Pəriçınqılı, Ayıçınqılı, Qurbağalı Çay, Qızıltəpə, Qaragöl ərazilərində müxtəlif növlü təsvirlər aşkar edilib. Qayaüstü təsvirlərin qeydə alınması və öyrənilməsi 1968-ci ildən başlanmışdır. Ümumiyyətlə Kəlbəcər yaylaqlarında 4000-ə qədər qaya rəsmləri mövcuddur.

Qədim incəsənətin bünövrəsini qoyan əcdadlarımızın sərt bazalt daşları üzərində çəkdikləri ov səhnələri rəngarəng məzmundadır. Bir daşın üzərində maral ovunun həyacanlı rəsmi həkk olunub. Başqa bir daşda ox və kamanla dağ keçilərinin ovlanması səhnəsi canlandı-

---

[34] Məmmədli, İ. XX əsr Kəlbəcər ədəbi mühiti / İ.Məmmədli. – Bakı: Elm, – 2010. – 180 s.

rılıb. Pusquda durmuş ovçu kamanın yayını çəkərək təhlükədən xəbəri olmayan dağkesini nişan alır. [35]

Yırtıcı heyvanlar arasında bəbir və canavarların təsvirləri daha çoxdur. Daşlar üzərində yırtıcı heyvanların dağkeçilərini təqib etməsi və ovlaması səhnələri əks olunmuşdur. Bu cür təsvirlərdə vəhşi heyvanların bütün fərdi xüsusiyyətləri öz əksini tapa bilmişdir. Kəlbəcər ərazisində - Dəlidağda nəsli çoxdan kəsilmiş bəbir təsvirləri bu cəhətdən xüsusilə seçilir. Onların yığcam, lakin olduqca canlı təsviri adamı heyran edir. Aydın olur ki, bu yerlərin qədim sakinləri onları əhatə edən yırtıcı heyvanların bütün xüsusiyyətlərinə yaxından bələd olmuşdular. Şübhəsiz, bu hər şeydən əvvəl onların ovçuluq məşğuliyyətlərindən irəli gəlmişdir.

**"Qayaüstü rəsmlərdə təsərrüfat səhnələri: Əkinçilik və maldarlıq təsvirləri"** adlı üçüncü fəslin ikinci yarımfəsli orta daş dövründə baş vermiş yeniliklərə aiddir. Bu təsvirləri yaxından izlədikdə maldarlıq təsərrüfatının yüksək inkişaf etməsini söyləmək olar. Maldarlıq təsərrüfatının inkişafı isə zəngin otlaqlara malik olan yüksək dağlıq zonaların mənimsənilməsinə ehtiyac yaradırdı. Bütün bunlar isə köçmə yaylaq maldarlığı ilə yanaşı oturaq yaşayış məskənlərinin salınması ilə nəticələnmişdir[36]. Bu rəsmlərin bir qismi qədim əkinçilik məşğuliyyətini əks etdirir. Ayrı-ayrı daşlar üzərində öküzlərə qoşulmuş ibtidai xışla yerin şumlanması, taxılın biçilməsi və döyülməsi kimi səhnələr, çiynində toxa tutmuş adam təsviri və s. verilmişdir[37].

Dissertasiyanın **üçüncü fəslinin üçüncü yarımfəsli "Qayaüstü rəsmlərdə dini təsəvvürlər, ideoqrafik yazı nümunələri, mərasim və etiqadlara aid səhnələr, kütləvi rəqs səhnələri, öküz təsvirləri" adlanır.** Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin materiallarında yazılı abidələrə nəzər yetirərkən burada dini və mifoloji elementlərin mövcud olduğunu görürük[38]. Bu yazılı abidələr içərisində təsvirlərdən biri digərlərindən daha dərin məzmunludur və düşündürücüdür. Bunu ideoqrafik yazı nümunəsi hesab etmək olar. Belə ki,

---

[35]Azərbaycanın yeni Qobustanı // – Bakı: Elm və həyat, – 1977. № 6, – s. 6-8.
[36] Археологические открытие 1976 года. – Москва: Наука, – 1977. – 608 с.
[37]İsmayılov, Q.S. Abidələr, xatirələr, düşüncələr / Q.S.İsmayılov. – Bakı: Gənclik, – 1981. – 105 s.
[38] Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Arxeologiya Fondu, AF inv 115 - keçi totemi, qaraçıraq, iy.

həmin təsvirdə möhtəşəm bir insan fiquru var. Həmin insan ayağının birini bir dairənin, o birini isə başqa bir dairənin üzərinə qoyaraq yuxarıdakı kürə fiquruna baxır[39].Belə güman olunur ki, həmin insan bir planetdən digərinə uçmağı arzulayır. İnsan fiqurunun ayağı altındakı kürə təsvirinin biri yer, o biri isə ay rəsmidir. Bu təsvirdə indiki zamanı qabaqlayan insan, ay planetinə, oradan isə başqa bir planetə uçmaq arzusuna düşmüşdür. Burada ciddi dini-fəlsəfi elementlərin şahidi oluruq. Həmin abidə təkrarolunmazlığı ilə fərqlənir[40].

Muzey materialları içərisində çox dəyərli yazılı abidələrdən biri də, atın günəşə qurban kəsilməsini təcəssüm etdirən bazalt daşıdır. Daşın üzərinə bir əlində balta, o biri əlində isə atın cilovundan tutub onu günəşə tərəf aparan kişi rəsmi həkk olunub. Yuxarıda günəş şəkili aydın görünür[41]. Atın günəşə qurban verilməsi türklərin, o cümlədən Azərbaycan xalqının formalaşmasında iştirak edən massagetlərin inanclarında görürük. Tarixin atası sayılan Herodoton məlumatına görə massagetlər günəşi yeganə Allah hesab etməklə ona at qurban vermişlər. Oxşar adət sarmatlarda da olmuşdur. Sibir və Altay xalqlarında da günəş və od üçün ağ at qurban kəsilirdi[42].

Günəşə sitayişin tunc dövründə mövcud olmasını və daş üzərindəki təsvirlərin ibtidai formada olmasını nəzərə alsaq, o halda muzeyin həyətindəki atın günəşə qurban kəsilməsi səhnəsinin tunc dövründə rəsm edilməsinə şübhə yeri qalmır.

Tədqiqat işinin **"Nəticə"** hissəsində elmi araşdrmalara yekun vurulmuş, ümumiləşdirilmə aparılaraq əldə olunan mühüm nəticələr təhlil edilməklə yanaşı, müəyyən tövsiyyələr irəli sürülmüşdür. İlk dəfə olaraq Kəlbəcər muzeyi materialları mənbə kimi istifadə edilmiş və maddi mədəniyyət qalıqları əsasında Azərbaycanda daş və tunc

---

[39] Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi Arxeologiya fondu, İnv. 3-Muzeyin həyətində sal daş üzərində ideoqrafik işarə-başqa planetə uçmaq istəyən adam rəsmi, atın günəşə qurban kəsilməsi abidəsi və daşişləmə sənətinə aid digər şəkillər: foto Zəkəriyyə Mehralıoğlunundur.

[40]Dəlidağ (Əsgərov), Ş. Kəlbəcərin qəm dastanı, viran olan gülüstanı / Ş.Dəlidağ (Əsgərov). – Bakı: Çıraq, – 1998. – 315 s.

[41] Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi AF,inv.3. Atın günəşə qurban kəsilməsi abidəsi.

[42] Babayev, T. Azərbaycan Etnoqrafiyası: [3 cilddə] / T.Babayev. – Bakı: Şərq-Qərb, - c.3. – 2007. – 568 s.; Herodot. Tarix: [9 kitabda] /Herodot; tərc. ed. P.Xəlilov; red.: A. Bağırov. – Bakı: Azərnəşr, – h.1. – 1998. – 329 s.

dövrünün inkişaf xüsusiyyətləri öyrənilmişdir. Dissertasiya Azərbaycan tarixinin bütün dövrlərini- qədim, orta, yeni və ən yeni dövrlərini əks etdiririr.

Kəlbəcər qayaüstü təsvirləri muzey materialı kimi ilk dəfə olaraq problem kimi qoyulmuş və muzeyin qeydə aldığı 3500-dən artıq təsvir müqayisəli şəkildə təhlil edilmişdir. Atın günəşə qurban kəsilməsini ifadə edən əhəmiyyətli bir rəsm və ideoqrafik nümunə də dissertasiya işində ilk dəfə təhlil edilmişdir. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi materiallarında qalalar kompleks halda işlənərək Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi əhəmiyyəti qeyd olunur. Elmi ədəbiyyata indiyədək məlum olmayan Mollabayramlı-Zivel və Mənsim qalaları tədqiqat işi zamanı üzə çıxarılmış və bununla da Azərbaycanın maddi və mədəni irsinin zənginləşməsində bu materialların önəmli olduğu sübut olunmuşdur. Dissertasiya işində həmçinin xalq oyunları şərh olunur. Bu oyunların bir neçəsinin, o cümlədən "Kilimarası", "Maraloyunu" və "Yeddi hünər" oyunlarının yalnız Kəlbəcər bölgəsinə xas olduğu sübut olunur. Ekspozisiya salonlarındakı materiallara əsasən Zar mağaraları, beş min ildən çox tarixi olan qədim yaşayış məskənləri haqqında məlumatlar və bu məskənlərdən tapılmış maddi mədəniyyət qalıqları təhlil edilərək dəyərləndirilmişdir. İlk dəfə olaraq Kəlbəcərin Zar ərazisində iki minillik tarixə malik olan şəhər xarabalığının mövcud olması barədə fikir irəli sürülərək buradan aşkar olunmuş üç-dörd qat qəbirlər və oradan üzə çıxarılaraq muzeyə təhvil verilmiş tuncdan ibarət qadın zinət əşyaları, qədim binanın daş sütunu, "Daş dirəkli dam"ın qalıqları və.s. maddi tapıntılarla sübut olunmuşdur. Eləcə də muzey materialları əsasında və tədqiqaçıların əsərlərindən yararlanaraq Keştək ərazisndə ilk orta əsrlərə məxsus şəhərin mövcud olması barədə təhlillər aparılmışdır. Nəinki Azərbaycan muzeylərində və hətta dünya muzeylərində rast gəlinməyən, kətan yağı əldə etmək üçün dəyirman daşına bənzər və ondan xeyli böyük olan "Bəzir daşı" ilk dəfə olaraq Kəlbəcər muzeyinin materialı kimi təhlil edilərək elmi ədəbiyyata təqdim olunur. Kəlbəcərin sərvətlərindən qızıl və daş xəzinələrinin müxtəlif adda və 10 min rəng çalarlı nümunələri haqqında məlumat verilərək ölkəmizin iqtisadiyyatının inkişafında rolu olacağı barədə fikir irəli sürülmüşdür. Muzeyin ayrıca bir guşəsini təşkil edən Kəlbəcərin 4000-dən ar-

tıq bitkisi, o cümlədən 200-dən artıq dərman bitkiləri haqqında məlumat verilmişdir.

Muzey materiallarında Kəlbəcər ərazisində xristian alban abidələri ilə bağlı geniş məlumat verilir: Xotavəng məbədi Kəlbəcərin 29-cu kilometrliyində VI-VII əsrlərə, Ağdərə rayonunun Vəngli kəndində Gəncəsər məbədi(Xaçın çayının sol sahilində) XIII əsrə, Həsənriz kəndində Alban məbədi 500-cü ilə, Həsənriz kəndində Alban məbədi 1283-cü ilə, Vəng kəndində Alban məbədi V-IX əsrlərə, Vəngli kəndində Alban məbədi XIII əsrə, Çərəkdar kəndində Alban məbədi V-VII əsrə, Kolataq kəndində Alban məbədi 614-cü ilə, Kolataq kəndində Müqəddəs Yaqub kilsəsi 635-ci ilə, Qocaqot kəndində Alban məbədi 672-ci ilə, Qocaqot kəndində Alban məbədi 698-ci ilə, Dəstəgir kəndində Alban məbədi 713-cü ilə, Qasapet kəndində Alban məbədi 718-ci ilə, Çormanlı kəndində Alban məbədi X əsrə, Mahrataq kəndindində məbəd 1881-ci ilə, Şaplar kəndində 2 məbəd XIII əsrə, Kiçan kəndində məbəd XIII əsrə, Çıldıran kəndində Alban məbədi XII əsrə, Çovdar kəndində Alban məbədi V-IX əsrlərə, Çıldlran kəndində Qırmızı məbəd XIII əsrə, Qozlu kəndində Xatırvəng məbədi 1204-cü ilə, Kəlbəcər-Ağgərə yolu üzərində məbəd 1251-ci ilə, Qasapet kəndində kilsə 1894-cü ilə, Madagiz kəndində kilsə 1898-ci ilə, Dovşanlı kəndində kilsə 1668-ci ilə, Dəvədaşı kəndində kilsə XII əsrə, Qozlu kəndində Qırmızı məbəd XVII əsrə, Talış kəndində Urek məbədi 1279-cu ilə, Bulanıq çayında Alban kilsəsi VIII-IX əsrlərə, Çormanlı kəndində Alban kilsəsi XI əsrə, Mahrataq kəndindində kilsə 1883-ci ilə aiddir. VII-XIII əsrlərdə Azərbaycan ərazisində baş vermiş siyasi hadisələr bu dövrün arxeoloji abidələrindən, memarlıq abidələrindən-qalalardan və şəhərlərdən də yan keçməmişdir. Monqolların dağıdıcı yürüşləri zamanı bu və digər abidələrimiz dağıntılara məruz qalmış, şəhərlər viran edilmiş və həyat səviyyəsi tənəzzülə uğramışdır.

Erməni “memar”larının bu abidələr üzərində zaman-zaman apardıqları saxtalaşdırmalar tədqiqat zamanı sübuta yetirilmiş və bu memarlıq nümunələrinin xristian alban-qıpçaqlara məxsus olduğu öz təsdiqini tapmışdır. Alban katalikosluğunun qriqoryan kilsəsinə tabe edilməsindən sonra abidələr üzərində ermənisayağı “restavrasiya” aparılması və 1836-cı ildə Alban katalikosluğunun ləğvindən sonra isə nəinki abidələr və abidələrin sahibləri olan albanlar özləri də milli kimliyini itirərək erməniləşdirilmişdir.

Muzey materiallarında məscidlərlə bağlı da məlumat verilmişdir. Məscidlərin bir qismi ilk olaraq monqol dağıntıları zamanı sıradan çıxmış, digər qismi isə çarizm və sovet hakimiyyətinin yürütdüyü siyasətin qurbanına çevrilmişdir. Azərbaycan torpaqları Rusiya tərəfindən işğal edildikdən sonra çarizmin xalqımıza qarşı milli zülmü ilə yanaşı, dini ayrıseçkilik etməsinin nəticəsində məscidlər tamamilə azalmış, sovet hakimiyyəti illərində isə qalan məscidlərin binaları başqa məqsədlər üçün istifadə edilmişdir. Bunun bariz nümunəsi olan Kəlbəcərdə rayonun mərkəzində yerləşən XII-XIII əsrlərə aid məscid sovet hakimiyyəti illərində anbara çevrilmişdi. 1993-cü ildə isə Ermənistan silahlı qüvvələri tərəfindən həmin məscid daxil olmaqla 1775-ci ildə tikilmiş Başlıbel məscidi, XV əsrdə tikilmiş Qaraxançallı məscidi, XVIII əsrdə tikikilmş Zar məscidi, XVIII əsrdə Məşədi Süleyman tərəfindən tikilmiş Çovdar-Şahkərəm məscidi, XIX əsrdə tikilmiş Otaqlı kəndindəki məscid və digər məscidlər dağıdılaraq yerlə yeksan edilmişdir.

Beləliklə, muzey materiallarından görünür ki, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi Kəlbəcər ərazisində 3500-dən artıq qayaüstü təsvir və 257 digər abidəni qeydə almışdır. 257 adda abidələrə daxildir: 6 mağara, 21 xristian məbədi, 11 kilsə, 15 məscid, 1 muzey, 175 qəbirüstü at və qoç daş fiqurları, 4 daş körpü, 8 ziyarətgah. Bunlar Kəlbəcərdə olan abidələrin yalnız qeydə alınanlarıdır. Hələ də bu sahədə arxeoloji və etnoqrafik tədqiqatlara ehtiyac vardır.

Nəticədə Qarabağ və onun ətrafında baş verən hadisələr zəminində aktual olan tədqiqat işi müvəffəqiyyətlə yerinə yetirilərək dövlətçilik və gələcək nəsillərə vətənpərvərliyi təbliğ etmək baxımından dəyərləndirilmişdir.

**Disserasiyanın əsas məzmunu müəllifin nəşr olunan aşağıdakı əsərlərində öz əksini tapmışdır**:


1. Kəlbəcər muzeyinin materiallarının Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi əhəmiyyəti // “Tarix və onun problemləri”. Bakı, 2017, s.347-351.
2. 1918-1920-ci illərdə Zəngəzur, Cavanşir qəzaları və ətraf bölgələrdə azərbaycanlıların soyqırımı Kəlbəcər Muzeyi materiallarında//.“Azərbaycan Xalq Cümhuriyyəti-100 : Müsəlman Şərqində

3. Kəlbəcər Muzeyinin materialları Azərbaycan etnoqrafiyasının öyrənilməsində mənbə kimi. //"Bakı Universitetinin xəbərləri". Bakı, 2018, s.173-184.
4. Kəlbəcər Muzeyinin materialları Azərbaycanın arxeoloji abidələrinin öyrənilməsində mənbə kimi // "Pedaqoji universitetin xəbərləri". //Bakı, 2019, s.175-183.
5. Materials of Kalbajar Museum as a source of study of Azerbaijani castles. // "Gileya" jurnalı, Kiev, 2019,s 84-87.
6. 1917-1920-ci illərdə müsəlman türklərinə qarşı erməni terroru və soyqırımı Kəlbəcər muzeyi materiallarında. // Geostrategiya, Bakı, 2019, s.68-71.
7. XX əsrin I rübündə müsəlman türklərin soyqırımı Kəlbəcər Muzeyi materiallarında". Qərbi Kaspi Universitetində Ümumilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Azərbaycan və dünya 1991-2018-ci illərdə: müqayisəli inkişaf dinamikası- Respublika Elmi-Praktik konfrans. //Qərb Universiteti. Bakı, 2019. s.386-394.
8. Museums and historical places//- Taras Şevçenko- 5-ci Beynəlxalq Elmi konqresi. // Kiev. 2020. s 117-118.
9. Kəlbəcər Tarix Diyarşünaslıq Muzeyi Tarixi abidələrin öyrənilməsində mənbə kimi. // Tokio, 2021, s.610-615.
10. Materials of Kalbajar Museum of regional studies as a source in the study of rock paintings. // Ankara, 2021, s.50-56.
11. Kəlbəcər Muzeyi materiallarında 1918-1920-ci illərdə Zəngəzur, Cavanşir qəzaları və İrəvan bölgəsində türk-müsəlman soyqırımı. // II Beynəlxalq Quba Elmi Simpoziumu. Quba- "Avropa" nəşriyyat evi, Quba, 2021, s.251-257.

Dissertasiyanın müdafiəsi 29 may 2025-ci il tarixində saat 10⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1073, H.Cavid prospekti 115

Dissertasiya işi ilə Azərbaycan Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.04.2025
Kağızın formatı: A5
Həcm: 45947
Tiraj:100